**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARI BAZARININ TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Səadət İntiqam qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya işi Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru
**Ramil Zahid oğlu Hüseyn**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

iqtisad elmləri doktoru, professor
**Natiq Əli oğlu Cavadov**

iqtisad elmləri doktoru
**Möhübbət Musa oğlu Hüseynov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

ÜMUMİ ŞÖBƏ

**Dissertasiya şurasının elmi katibi:** iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Fərhad Pənah oğlu Rəhmanov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal etdikləri məhsulların satışı zamanı əlverişli şərtlərin təmin edilməsi, o cümlədən sabit və sərfəli şəkildə qazanc əldə etmələrinin stimullaşdırılması, bununla da, istehsalın davamlılığının artırılması baxımından aqrar bazarın tənzimlənməsi sistemi mühüm vasitələrdən biridir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) müvafiq hesabatlarında qeyd olunduğu kimi, kənd təsərrüfatı bazarları inkişaf prosesinin mərkəzində dayanır. Yaxşı işləyən bazarlar ticarət resursların optimal şəkildə bölüşdürülməsinə, bilik və texnologiyaların yayılmasına imkan verir və kənd təsərrüfatını iqtisadiyyatın digər sektorları ilə effektiv şəkildə əlaqələndirən mexanizmlər təmin edir. Bazar mexanizmi iqtisadiyyatın struktur transformasiyası, artım və inkişaf üçün həlledici əhəmiyyətə malik olduğundan kənd təsərrüfatı məhsulları bazarları və ticarətində müsbət trendlərin dayanıqlılığına töhfə vermək üçün dövlətlər tərəfindən müvafiq siyasət alətləri tətbiq edilir.

Ölkəmizdə aqrar sahədə davamlı olaraq aparılan islahatlar nəticəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi və bir sıra strateji məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində, həmçinin kənd təsərrüfatı məhsulları ixracının artımında ciddi irəliləyişlər əldə olunmuşdur. Fermerlərə dövlət tərəfindən çoxşaxəli dövlət dəstəyinin tətbiqi aqrar sahədə işgüzar fəallığın artırılmasını stimullaşdırmaqla, bu sahədə fəaliyyətə iqtisadi marağı artırmışdır.

Eyni zamanda, görülən məqsədyönlü tədbirlər sayəsində ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində yaranmış artım və inkişaf trendi aqrar bazarda sabitliyin və bazar şərtlərinin fermerlər üçün əlverişliliyinin təmin olunmasını tələb edir. Bu məqsədlə ölkədə aqrar bazarın inkişaf etdirilməsi və effektiv bazar tənzimlənməsi mexanizmlərinin tətbiq olunması, o cümlədən bazara operativ müdaxilə tədbirlərinin sistemli şəkildə həyata keçirilməsinə ehtiyac yaranır.

Aqrar sahənin inkişafının dəstəklənməsi çərçivəsində bazar sistemində formalaşan və bazar uğursuzluqlarına şərait yaradan çatışmazlıqların aradan qaldırılması ölkə əhəmiyyətli bir sıra siyasət

sənədlərində həlli vacib olan məsələlər kimi müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə qəbul edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi və bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi məsələləri öz əksini tapmışdır. Bu istiqamətdə mövcud problemlər və həlli vacib olan əsas istiqamətlər verilmişdir. Strateji Yol Xəritəsində müəyyən edilən və həyata keçirilən müvafiq tədbirlərin davamı olaraq aqrar islahatların yeni mərhələsi çərçivəsində bazar iştirakçılarının effektiv fəaliyyəti üçün zəruri şərtlərin təmin olunması "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda dövlətin diqqət mərkəzində olan mühüm çağırışlardan biri kimi müəyyən edilmişdir.

Bununla belə, hazırki şəraitdə bəzi məhsullar üzrə istehsal həcminin artımı məhsul yığımı dövründə təklif artıqlığına səbəb olur ki, bu da həmin məhsulların qiymətlərinin qeyri-sabitliyinə və istehsalçılar baxımından əlverişsiz bazar şərtlərinin yaranmasına səbəb olur. Eyni zamanda logistika infrastrukturunun kifayət qədər inkişaf etməməsi məhsulların saxlanmasında müəyyən çətinliklər yaradır. Bu da mövsümdən kənar dövrlərdə bazarda istehlakçılar baxımından qiymətlərin əlverişsiz olması və ya bazarda idxal məhsulların üstünlük təşkil etməsi ilə nəticələnir. Kənd təsərrüfatı məhsulları bazarında baş verən belə qeyri-sabitlik və qiymət dalğalanmaları, təbii ki, aqrar sahədə istehsalın dayanıqlı inkişafına da mənfi təsir göstərir.

Məhdud logistika sistemi və infrastruktur çatışmazlığı, istehsalçıların bazar tələbi və qiymət səviyyəsi haqqında az məlumatlı olması və ya informasiya assimmetriyası, mövsüm və qeyri-mövsüm dövrlərində tələb və təklif strukturu kimi ənənəvi bazar uğursuzluğuna səbəb olan amillərlə yanaşı, pandemiyanın təsirləri və hərbi-siyasi münaqişələr fonunda qlobal ərzaq bazarında yaranmış hazırkı şərait daxili bazarın qorunması və istehsalçılar və istehlakçılar baxımından əlverişli bazar mühitinin formalaşdırılması üçün dövlət tərəfindən sistemli tənzimləyici tədbirlərin həyata keçirilməsini xüsusilə zəruri edir.

Bu istiqamətdə Azərbaycanın istehsal imkanları olan müvafiq kənd təsərrüfatı məhsulları idxalının yerli məhsullarla əvəzlənməsi, ixrac potensialından istifadənin gücləndirilməsi və emal sektorunun

inkişafı imkanlarını nəzərə alaraq, istehsal həcmində artım trendinin dayanıqlılığını təmin etmək məqsədilə aqrar bazarda qiymət dalğalanmalarının (volatiliyinin) qarşısının alınması və sabitliyin təmin edilməsi üçün daha işlək bazar intervensiyası mexanizmlərinin formalaşdırılması ilə bağlı məsələlərin həlli önəmlidir.

Qeyd edilənləri nəzərə alaraq, əlverişli mühitin formalaşdırılması baxımından kənd təsərrüfatı məhsullarının bazar tənzimlənməsi mexanizmlərinin hərtərəfli araşdırılması, mövcud sistemin təkmilləşdirilməsi və effektiv mexanizmlərin tətbiqi imkanlarının tədqiqi aktual hesab edilir.

Azərbaycanda iqtisadiyyatın tənzimlənməsi məsələləri, o cümlədən kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mexanizmləri müxtəlif aspektlərdən (o cümlədən rəqabət mühiti, qiymətlərin səviyyəsi, bazar infrastrukturunun inkişafı, ixracın artırılması və s.) Z.Ə.Səmədzadə, H.A.Xəlilov, E.R.İbrahimov, V.T.Novruzov, N.Ə.Cavadov, F.P.Rəhmanov, R.K.İsgəndərov, V.H.Abbasov, İ.H.İbrahimov, İ.H.Alıyev, S.V.Salahov, V.Ə.Qasımlı, R.Z.Hüseyn, F.F.Fikrətzadə, İ.Ş.Qarayev, A.F.Abbasov, İ.M.Xeyirxəbərov, B.X.Ataşov, M.M.Hüseynov və başqaları tərəfindən tədqiq edilmişdir.

Eyni zamanda kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi məsələləri müxtəlif dövrlərdə müxtəlif aspektlərdən xarici tədqiqatçıların da maraq dairəsində olmuşdur. Bu istiqamətdə iqtisadi ədəbiyyatda çoxsaylı tədqiqat və araşdırmalar mövcuddur. Xarici tədqiqatçılardan V.Erokhin, C.Cullinan, Frank Ellis, Jim Harvey, Frolova E.Yu., I.A.Minakov, Christopher B. Barrett, Emelly Mutambatsere və başqaları öz tədqiqat işlərində aqrar bazarın tənzimlənməsi məsələlərini araşdırmış və bazarın inkişafına dair tövsiyələr vermişlər.

Kənd təsərrüfatı məhsulları bazarının inkişafı və bazarın tənzimlənməsi məsələlərinə FAO, OECD, Dünya Bankı, İFAD və digər beynəlxalq təşkilatların həyata keçirdiyi layihələr çərçivəsində və belnəlxalq ekspertlərin araşdırmalarında da baxılmış, bazar uğursuzluqlarının aradan qaldırılmasına və inkişaf istiqamətlərinə dair tövsiyələr verilmişdir.

Bununla belə, iqlim dəyişikliyi, pandemiya və regional münaqişlər kimi qlobal amillərin təsirləri nəzərə alınmaqla Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi

mexanizmlərinin təkmilləşdirilməsi ayrıca tədqiqat predmeti olmamış, kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara bərabər və əlverişli şərtlərlə çıxış imkanlarının yaradılması və əlverişsiz bazar şərtlərinin azaldılması məqsədilə dövlət tərəfindən bazara müdaxilə tədbirlərini əhatə edən mexanizmlərin təkmilləşdirilməsinin nəzəri və praktiki aspektləri zəruri səviyyədə araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarı sistemi və bazar iştirakçılarıdır. Aparılan araşdırmanın predmeti kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin formalaşması və təkmilləşdirilməsi mexanizmləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycanın aqrar bazarının tənzimlənməsinin sistemli təhlili və bu sahədə mövcud tənzimləmə mexanizmlərinin daha da təkmilləşdirilməsinə dair əsaslandırılmış təkliflər hazırlamaqdır.

Tədqiqatın məqsədlərinə uyğun olaraq aşağıdakı əsas vəzifələr yerinə yetirilməlidir:

✓ Kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin nəzəri məsələlərinin tədqiq edilməsi;

✓ Kənd təsərrüfatı məhsulları bazarında qlobal trendlərin təhlili və beynəlxalq çağırışların açıqlanması;

✓ Kənd təsərrüfatı məhsulları bazarında tənzimlənmə mexanizmlərinə dair metodoloji yanaşmaların araşdırılması;

✓ Ölkədə kənd təsərrüfatı məhsulları bazarının formalaşması və tənzimlənməsinin təşəkkülü xüsusiyyətlərinin təhlil edilməsi;

✓ Kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi;

✓ Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi istiqamətlərinin müəyyən edilməsi;

✓ Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat zamanı sistemli yanaşma, müqayisəli təhlil, dinamika sıralarının araşdırılması, ümumiləşdirmə, analitik və statistik tədqiqat metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

✓ kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi ilə bağlı elmi-nəzəri baxışların ümumiləşdirilməsi;
✓ kənd təsərrüfatı məhsulları bazarında qlobal trendlərin və beynəlxalq çağırışların ümumiləşdirilməsi;
✓ kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsinə dair mövcud metodoloji yanaşmaların müəyyənləşdirilməsi;
✓ Azərbaycanda aqrar bazarın inkişaf xüsusiyyətlərinin mərhələlər üzrə qruplaşdırılması və müvafiq inkişaf mərhələləri üzrə bazar tənzimlənməsinin formalaşma xüsusiyyətlərinin aşkar edilməsi;
✓ Azərbaycanda aqrar bazarın effektivliyinin qiymətləndirilməsi nəticələrinə uyğun olaraq inkişaf ehtiyaclarının müəyyən edilməsi;
✓ Ölkədə kənd təsərrüfatı məhsulları bazarının inkişaf ehtiyaclarına müvafiq tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi və müvafiq mexanizmlərə dair təkmilləşdirmə məsələləri.

**Tədqiqatın elmi yeniliyi.** Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin təkmilləşdirilməsi mexanizmlərinin tədqiqində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:
✓ kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi ilə bağlı elmi-nəzəri baxışlar və tənzimlənmənin effektivliyinin qiymətləndirilməsinə dair yanaşmaların sistemli təhlili əsasında müvafiq ümumiləşdirmələr aparılmışdır;
✓ kənd təsərrüfatı məhsulları bazarının təkamül mərhələləri üzrə tənzimlənməsi mexanizmlərinin formalaşmasının əsas amilləri açıqlanmışdır;
✓ dövlət müstəqilliyi şəraitində Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının inkişaf mərhələləri üzrə təşəkkülü xüsusiyyətləri göstərilmişdir;
✓ iqlim dəyişiklikləri, regional münaqişələr və pandemiya kimi qlobal amillərin təsirləri ilə daha da aktuallaşan bazar tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinin aqrar sektora təsiri qiymətləndirilmiş və prioritet istiqamətləri aşkarlanmışdır;
✓ kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin effektivliyi müasir metodologiyalar əsasında kompleks qiymətləndirilmiş və bazar sabitliyinin təmin edilməsi şərtləri müəyyən edilmişdir;
✓ bazar tənzimlənməsi alətlərinin dəyər zənciri üzrə qarşılıqlı əlaqəli

surətdə təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüşdür;
- ✓ aqrar bazarda istehsalçılar və istehlakçılar baxımından əlverişli bazar şərtlərinin formalaşdırılmasına xidmət edən intervensiya tədbirlərinə dair təkliflər hazırlanmışdır;
- ✓ kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafının stimullaşdırılması istiqamətlərinə dair tövsiyələr verilmişdir;
- ✓ işğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatı məhsulları bazarının təşkili imkanları müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiq olunan mövzu ilə bağlı əldə olunan nəticələr kənd təsərrüfatı məhsulları bazarının inkişaf etdirilməsi və bazarın tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı siyasət tövsiyələrinin və siyasət sənədlərinin hazırlanmasında geniş şəkildə istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri ilə bağlı 2020-2023-cü illərdə bir sıra beynəlxalq və respublika səviyyəli elmi konfranslarda (Türkiyə, Moldova) məruzələr edilmiş (onlayn), nüfuzlu xarici elmi jurnallarda (Rusiya, Ukrayna) və Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısında olan dövri elmi nəşrlərdə məqalələr çap edilmişdir.

Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi istiqamətləri ilə bağlı araşdırılmış məsələlərə dair müxtəlif arayış və məlumatlar Kənd Tərərrüfatı Nazirliyinə, o cümlədən Nazirliyin aidiyyəti qurumlarına təqdim edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən (11910 işarə), üç fəsildən (I fəsil 78279, II fəsil 95166, III fəsil 53804 işarə), nəticədən (11622 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından (151 adda) ibarət olub, ümumi həcmi 164 səhifədir. İşdə 19 cədvəl, 1 şəkil, 13 qrafik, 3 əlavə vardır. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, sxemlər, diaqramlar, qrafiklər, əlavələr, ədəbiyyat siyahısı və boşluqlar istisna edilməklə) isə 250781 işarə təşkil edir.

# DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**
**I Fəsil. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin nəzəri-metodoloji əsasları**
1.1. Kənd təsərrüfatı məhsullarının bazar tənzimlənməsinin funksiyaları və əsas alətləri
1.2. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin inkişafı amilləri
1.3. Kənd təsərrüfatı məhsulları üzrə bazar şəraiti və tənzimlənməsinin qiymətləndirilməsinin metodoloji aspektləri
**II Fəsil. Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin mövcud vəziyyətinin qiymətləndirilməsi**
2.1. Kənd təsərrüfatı məhsulları bazarı üzrə mövcud vəziyyətin təhlili
2.2. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin təşəkkülü xüsusiyyətləri
2.3. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi
**III Fəsil. Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinin əsas istiqamətləri**
3.1. Bazar intervensiyası mexanizminin tətbiqi
3.2. Bazar tənzimlənməsinin dəyər zənciri üzrə təkmilləşdirilməsi istiqamətləri
3.3. Bazar infrastrukturunun sistemli inkişafının stimullaşdırılması
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**
**Əlavələr**
**İxtisarlar və şərti işarələr**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

### 1. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi ilə bağlı nəzəri yanaşmaların ümumiləşdirilməsi

Kənd təsərrüfatı sahəsinin dayanıqlı inkişafının təmin edilməsində effektiv kənd təsərrüfatı bazarlarının mövcudluğu mühüm rol oynayır. İşlək bazar mexanizmi iqtisadiyyatın struktur transformasiyası, artım və inkişaf üçün həlledici əhəmiyyətə malikdir.

Dissertasiyada kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi məsələləri araşdırılmış, iqtisadi ədəbiyyatlarda bu istiqamətdə aparılmış araşdırma və tədqiqatlara baxılmış, aqrar bazarın tənzimləməsi mexanizmləri ilə bağlı mövcud nəzəri yanaşmalar ətraflı təhlil edilmişdir.

Göstərilir ki, kənd təsərrüfatı məhsulları bazarı sisteminə dair araşdırmalar, əsasən i) liberal tənzimləmənin üstünlüyü və ii) proteksionist siyasətin daha effektiv olması üzrə olmaqla iki istiqamətdə aparılmışdır.

Liberal tənizmləmə siyasətinin tərəfdarları dövlətin iqtisadi sistemə tətbiq edilən məhdudiyyətlərin, həmçinin dəstək tədbirlərinin aradan qaldırılmasını, xarici ticarət əməliyyatlarında tətbiq edilən bariyerlərin yumşaldılmasını zəruri hesab edirlər[1].

Bunun əksinə olaraq, ölkə daxilində iqtisadi fəaliyyətin yaxşılaşdırılması üçün qlobal ticarəti məhdudlaşdıraraq daxili bazarın inkişafını təmin etmək, həmçinin təhlükəsizlik və keyfiyyət tələbləri məqsədilə həyata keçirilən proteksionist dövlət siyasətinin tərəfdarları hesab edirlər ki, bu siyasət məşğulluğun yüksəldilməsinə və istehsalın artımına müsbət təsir edir[2]. Bazar iqtisadiyyatı şəraitində proteksionizm siyasətinin dövlətin məqsədlərindən asılı olaraq müəyyən bir məhsula və ya sektora, həmçinin hər hansı bir ölkəyə və ya ölkələr qrupuna da tətbiq edildiyi məlumdur.

[1] *Ellis, F. History of Agricultural Policy / Ellis F., Harvey J., Waites T. // - 2008; Erokhin, V. Trade liberalization and state support of agriculture: effects for developing countries, Erokhin V., Ivolga A., Heijman W. // - 2014, -1, 14 s.*

[2] *Alekseevich, I.M. Agricultural Market Development: Trends and Prospects Alekseevich, I.M., Valerievich A.N. // - 2019, 5 s.; Cullinan, C. Improving the legal environment for agricultural marketing / Agricultural Services Bulletin 139, Cormac Cullinan // FAO. Rome: - 1999*

Dissertasiya işində müxtəlif ölkələrdən olan tədqiqatçı və alimlərin, o cümlədən beynəlxlaq təşkilatların araşdırma, tədqiqat və hesabatlarına istinad edilməklə bazarın tənzimlənməsi istiqamətləri və mexanizmlərinə dair nəzəri yanaşmalar ümumiləşdirilmişdir.

Aparılmış nəzəri araşdırma və dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla dövlətin aqrar siyasət tədbirlərinin bir elementi kimi kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin sxematik təsviri şəkil 1-də verilmişdir.




**Şəkil 1. Kənd təsərrüfatı məhsullarının bazar tənzimlənməsinin konseptual təsviri**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Beləliklə, kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsinin nəzəri məsələlərinə və dünya ölkələrinin bu istiqamətdə həyata keçirdiyi təmzimləmə məqsədi daşıyan siyasət mexanizmləri və alətlərinə dair apardığımız araşdırmalara əsasən deyə bilərik ki, kənd təsərrüfatı məhsulları bazarının uğursuzluqlarına səbəb olan əsas amillər qeyri-stabil qiymət səviyyəsi, informasiya asimmetriyası,

yüksək nəqliyyat və əməliyyat xərcləri hesab edilir. Qeyd edilən bu amillər kənd təsərrüfatı məhsulları bazarlarının arzu olunan və gözlənilən fayda təmin etmə imkanlarını məhdudlaşdırır, sektora geniş miqyaslı investisiyaların cəlb edilməsini, kiçik fermerlərin və sahibkarların qlobal bazar sistemləri və qlobal dəyər zəncirləri ilə əlaqələndirilməsini zəiflədir. Bu baxımdan demək mümkündür ki, dövlətin bazara müdaxilə tədbirləri əksər hallarda, qeyd edilən bu uğursuzluqları və riskləri azaltmaq və ya aradan qaldırmaq, həmçinin önləyici tədbirlər görmək məqsədi daşıyan bir hökumət cavabıdır.

**2. Kənd təsərrüfatı məhsulları bazarında qlobal trendlərin və beynəlxalq çağırışların ümumiləşdirilməsi**

Kənd təsərrüfatı sektoruna iqtisadi inkişafın müxtəlif mərhələlərində və fərqli iqtisadiyyatlarda fərqli siyasətlər tətbiq edilsə də, kənd təsərrüfatının dayanıqlı inkişafı ehtiyacı müasir dövrdə də əsas çağırışlardandır.

Tədqiqat işində kənd təsərrüfatı sektoruna tətbiq edilən müxtəlif istiqamətli siyasət alətləri, o cümlədən kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin inkişafı amilləri araşdırılmış, aqrar bazarda qlobal trendlər təhlil edilmiş, beynəlxalq təşkilatların aqrar sahənin inkişafında həlli mühüm hesab edilən əsas çağırışları verilmişdir.

Qeyd edilmişdir ki, 2020-ci ildən kənd təsərrüfatı bazarlarında qlobal pandemiyanın təsirləri ilə başlayan dalğalanmalar və beynəlxalq tədarük və ticarət zəncirlərində yaranmış pozuntular Rusiya-Ukrayna müharibəsinin başlaması ilə 2022-ci ildən etibarən daha da kəskinləşmişdir.

FAO-nun məlumatına əsasən 2022-ci il ərzində ərzaq məhsulları üzrə qiymət indeksi ən yüksək səviyyəyə çatmışdır *(Qrafik 1).*

FAO hesab edir ki, aqrar bazarın dayanıqlı inkişafını təşviq edən effektiv tədbirlərin hazırlanıb həyata keçirilməsi, xüsusilə pandemiya kimi amillərin təsirlərinin mimimallaşdırılması dövlət siyasətinin əsas öhdəliyi olmalıdır.




**Qrafik 1. Ərzaq məhsulları üzrə qlobal qiymət indeksi (2014-2016=100)**

*Mənbə: www.fao.org/worldfoodsituation/FoodPricesIndex/en/*

Aqrar sahənin özünəməxsus spesifikliyinin, həmçinin ölkələrin təbii resurs və iqtisadi imkanlarının şərtləndirdiyi dəstək tədbirləri ilə yanaşı, iqtisadi sistemlərdə yaranan istənilən şoklar və qeyri-müəyyənliklər aqrar bazarlara yeni dəstək tədbirlərinin tətbiqini şərtləndirir, bir çox ölkələrin siyasət alətləri dəyişir. Məsələn, pandemiyanın və müharibənin yaratdığı bazar pozuntuları əksər dövlətləri aqrar siyasət tədbirlərində yenidən dəyişikliklər etməyə vadar etmişdir.

Kənd təsərrüfatı məhsulları bazarlarında qlobal trendlərin təhlilinə dair apardığımız qiymətləndirmələrə əsasən deyə bilərik ki, belə siyasət dəyişiklikləri müəyyən şərtlərin təsiri ilə formalaşan mühitin yaratdığı zərurətdən irəli gələn tarixi qanunauyğunluqdur.

Dünya bazarında qeyri-sabitlik yaranan dövrlərdə ayrı-ayrı dövlətlər tərəfindən tətbiq edilən yeni siyasət alətləri daha çox daxili bazarın qorunması və ehtiyacların təmin edilməsi, həmçinin daxili iqtisadi inkişafın saxlanması məqsədini daşımışdır. Hazırkı şəraitdə aqrar sektorun yeni inkişaf mərhələsi əksər dövlətlər üçün yeni inkişaf strategiyaları işləyib hazırlamaq və tətbiq etmək çağırışını qarşıya qoyur.

Qlobal kənd təsərrüfatı bazarlarının inkişaf xüsusiyyətləri və aqrar sahənin inkişafı ilə bağlı beynəlxalq çağırışlara dair apardığımız araşdırmalar göstərir ki, nə müasir çağırışlar, nə də tarixən mövcud olmuş yanaşmalar aqrar sahədə dövlətin rolu olmadan inkişafın təmin edilməsini qarşıya qoymur. Yanaşmalar fərqli olsa da, bütün

hökumətlərin qarşısında əsas məqsəd aqrar sektorun dayanıqlı inkişafına nail olmaq, ərzaq təhlükəsizliyini və əhalinin rifah halının yaxşılaşmasını təmin etmək və gəlirliliyi artırmaqdır. Bu da əlverişli bazar şərtlərinin təmin edilməsi zərurətini bir daha irəli çəkir.

**3. Kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin qiymətləndirilməsi üçün mövcud metodoloji yanaşmalar**

Aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi tədbirləri çərçivəsində bazarın inkişaf ehtiyaclarının və ya çatışmazlıqlarının qiymətləndirilməsi adekvat siyasət alətlərinin formalaşdırılması üçün baza rolunu oynayır. İqtisadi ədəbiyyatlarda kənd təsərrüfatı məhsulları üzrə bazar şərtlərinin mövcud vəziyyətinin qiymətləndirilməsinə və inkişaf ehtiyaclarının müəyyən edilməsinə imkan verən müxtəlif metodoloji yanaşmalar mövcuddur.

Dissertasiya isində bazar uğursuzluqlarına səbəb olan əsas amillər və onların qiymətləndirilməsi ilə bağlı mövcud yanaşmalar araşdırılmış, bazar sisteminin səmərəliliyini müəyyən edən göstəricilər müəyyən edilmişdir.

Belə ki, bazar uğursuzluqlarına səbəb olan əsas amillərdən biri qiymətlərdəki dəyişkənlik səviyyəsidir. V.Abbasovun qənaətinə görə "*Dövlət tənzimlənməsi sistemində əsas aparıcı rolu qiymət səviyyəsinin və qiymət tarazlığının gözlənilməsinə yönəldilən səylər təşkil edir. Qiymət mexanizmi balansının pozulması çox vaxt dağıdıcı nəticələrə gətirib çıxarır*"[3]. Bu fikirlə razılaşaraq, hesab edirik ki, qiymətlərin səviyyəsinin sabitləşdirilməsi istiqamətində həyata keçirilən dövlətin dəstək tədbirləri əlverişli bazar şərtlərinin formalaşmasında mühüm rol oynaya bilər.

Dissertasiya işində kənd təsərrüfatı məhsulları üzrə qiymətlərin dəyişkənlik səviyyəsinin müəyyən edilməsi üçün aşağıdakı düsturlardan istifadə edilmişdir:

1. Variasiya Əmsalı (CV) müəyyən bir müddət ərzində qiymətlərin eyni intervaldakı orta qiymətə bölünməsidir[4].

Variasiya Əmsalı (CV) = (Standart Kənarlaşma (SD) / Orta

[3] *Abbasov, V. Aqrar sahədə tənzimləmənin aktual problemləri / Vahid Abbasov (Monoqrafiya) // Bakı: - 2012, 424 s., - 1 s.*

[4] *Madelon F.Z. Z-4: Mean, Standard Deviation, And Coefficient Of Variation / Electronic resource] // - 2019.*

kəmiyyət ($\bar{x}$) * 100. (1)

2. Qiymətlərin Arifmetik Dəyişiklikləri. 2-ci dövr qiyməti ilə 1-ci dövr qiyməti arasındakı fərqin 1-ci dövr qiymətinə bölünməsi ilə müəyyən edilir.

Qiymətlərin Arifmetik Dəyişiklikləri = (P2 - P1) / P1 (2)

3. Loqarifmik Qiymət Dəyişiklikləri. 2-ci dövrün qiymətinin 1-ci dövrün qiymətinə bölünməsinin loqarifmasının tapılması ilə müəyyən edilir.

Loqarifmik Qiymət Dəyişiklikləri = ln (P2 / P1) (3)

4. İllik qiymət dəyişkənliyi. Standart kənarlaşmanın il ərzində müşahidələrin sayının kvadrat kökünə vurulması ilə müəyyən edilir.

İllik qiymət dəyişkənliyi = Standart Kənarlaşma * SQRT(n) (4)

n = il ərzində müşahidə edilmiş qiymətlərin sayını göstərir[5].

Bazar şərtlərinin bazar iştirakçıları baxımından nə dərəcə əlverişli olduğunu qiymətləndirməyinin bir metodu da qiymət paritetinin müəyyən edilməsidir.

Dissertasiya işində qiymət pariteti aşağıdakı düsturla qiymətəndirilmişdir.

$İ_{qp} = İ_{k/t} / İ_s * 100\%$ (5)

*burada:*

$İ_{qp}$ - qiymət pariteti indeksi;

$İ_{k/t}$ - kənd təsərrüfatı məhsullarının qiymət indeksi;

$İ_s$ - kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə olunan sənaye məhsullarının orta qiymət indeksi[6].

Eyni zamanda tədqiqat işində bazar sisteminin səmərəliliyini müəyyən edən göstəricilərdən biri hesab edilən bazar marjası təhlili aşağıdakı düsturdan istifadə edilməklə aparılmışdır.

Ümumi bazar marjası = (İstehlakçı qiyməti - istehsalçı qiyməti) / (İstehlakçı qiyməti)*100[7]. (6)

[5] *Bloem, J. Calculating Price Volatility / Bloem J. // - 2015, - 1-2 p.*

[6] *Самаруха, В.И., Тяпкина М.Ф. Ценовые диспропорции, возникающие на сельскохозяйственную и промышленную продукцию. // Baikal Research Journal ///Иркутск, 2019, - 10 стр.*

[7] *Mandizvidza, K. Analyzing Marketing Margins and the Direction of Price Flow in the Tomato Value Chain of Limpopo Province, South Africa / Mandizvidza K / International Journal of Environmental & Agriculture Research (IJOEAR) ISSN: [2454-1850] [Vol-3, Issue-3, March- 2017], - 2, 4 s.*

Aparılmış araşdırmalara əsasən məlum olur ki, bazarların yaxşı işləməsi üçün əsas faktorlardan biri də infrastrukturdur. Kənd təsərrüfatında bazar infrastrukturu qeyri-adekvat olarsa, bazarda rəqabət mühiti və adekvat təklif həcmində ciddi problemlər yarana bilər. Tədqiqat işində Avropa İttifaqında tətbiq olunan metodologiya əsasında kənd təsərrüfatı məhsulları üzrə anbar ehtiyacının müəyyən edilməsi məqsədilə istifadə edilən aşağıdakı düsturla aparılmış hesablamalardan istifadə edilib[8].

$$SN = Max\ (Px + Ix - Ex + Sx - ACx)\ (7)$$

Burada,

$Px$ - $x$ məhsulu üzrə aylıq istehsal həcmi;

$Ix$ - $x$ məhsulu üzrə aylıq idxal həcmi;

$Ex$ - $x$ məhsulu üzrə aylıq ixrac həcmi;

$Sx$ - $x$ məhsulu üzrə ayın əvvəlinə qalıq həcmi (ayın əvvəlinə qalıq əvvəlki ayın sonuna qalıq həcminə bərabərdir);

$ACx$ - $x$ məhsulu üzrə *aylıq istehlak həcmi (illik istehsal+illik idxal-illik ixrac) / 12.*

Beləliklə,

Anbar ehtiyacı = Max (İstehsal+İdxal-İxrac+Başlanğıc stok-Aylıq istehlak).

Kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxış şərtlərinin araşdırılması bazar sisteminin əlverişliliyini qiymətləndirməyə və inkişaf ehtiyaclarını müəyyən etməyə imkan verən digər faktorlardan biri hesab edilir. Bu baxımdan tədqiqatda nominal və effektiv mühafizə əmsalı göstəricisi qiymətləndirilmiş, həmçinin fermerlərin bazara çıxışı ilə bağlı ehtiyaclar məmnunluq sorğuları vasitəsilə qiymətləndirilmişdir. Bütün bunlarla yanaşı, bazar tənzimlənməsinin qiymətləndirilməsi üçün mövcud metodoloji yanaşmaların müəyyənləşdirilməsi zamanı ölkənin vergi-gömrük siyasətinin də təhlil edilməsi əhəmiyyətli hesab edilmişdir.

Beləliklə, kənd təsərrüfatı məhsulları bazarlarının inkişafına

[8] *Study on storage capacities and logistical infrastructure for eu agricultural commodities trade / European Commission. Areté s.r.l. – Research & Consulting in Economics - 2017, - 11, 16 s.*

xidmət edən tənzimlənmə istiqamətlərinə dair ehtiyacların qiymətləndirilməsi ilə bağlı metodoloji yanaşmaların araşdırılması zamanı məlum olur ki, bazarın inkişafını xarakterizə edən amillər kimi, əsasən qiymətlərin dəyişkənlik səviyyəsinin və tezliyinin, qiymətlərin paritetlik dərəcəsinin, bazar marjasının qiymətləndirilməsi aparılmalı, bazarın inkişafına təsir edən amillər kimi logistika infrastrukturunun, fermerlərin bazara çıxış şərtlərinin, həmçinin ölkənin vergi və gömrük siyasətinin inkişafa yaratdığı məhdudiyyətlər araşdırılmalıdır.

**4. Azərbaycanda aqrar bazarın inkişaf mərhələləri üzrə bazar tənzimlənməsinin formalaşma xüsusiyyətləri**

Dissertasiya işində Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının mövcud vəziyyətinə dair təhlil və qiymətləndirmələr aparılmış, dövlət müstəqilliyi dövründə bazar qanunauyğunluqlarının formalaşması, bu istiqamətdə həyata keçirilmiş tədbirlər araşdırılmış, bazar tənzimlənməsinin formalaşma xüsusiyyətləri aşkar edilmişdir.

Azərbaycanda kənd təsərrüfatı məhsulları üzrə bazar qanunauyluqlarının formalaşdırılması və bazar sisteminin təkamülü prosesi şərti olaraq i) müstəqilliyin ilk illərini əhatə edən bazar iqtisadiyyatına keçidin ilkin mərhələsi: 1991-1994-cü illər, ii) aqrar islahatların intensivləşmə mərhələsi: 1995-2002-ci illər, iii) bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni inkişaf mexanizmlərinin formalaşdırılma mərhələsi: 2003-2014-ci illər və iv) aqrar islahatların müasir mərhələsi: 2015-ci ildən sonrakı dövrlərə bölünmüş və müvafiq dövrlər üzrə tənzimləmənin əsas xarakterik xüsusiyyətləri ilə bağlı təhlil və qiymətləndirmə aparılaraq dissertasiya işində ətraflı məlumat verilmişdir.

Eyni zamanda hazırda mövcud olan tənzimləmə mexanizmləri araşdırılmış və gömrük-tarif mexanizmləri, qeyri-tarif tədbirləri, ixracın stimullaşdırılması tədbirləri, alış qiyməti siyasəti (contract farming) və son illərdə baş verən qlobal ərzaq böhranına uyğunlaşma tədbirləri ilə bağlı təhlillər aparılaraq müəyyən edilmişdir ki, ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarının bazar qiyməti birbaşa olaraq tənzimlənmir, aqrar bazarın tənzimlənməsi siyasəti əsasən istehsal vasitəsi dəstəyi, gömrük-tarif tənzimləmələri, vergi güzəştləri və qeyri-tarif tənzimləmələri formasında həyata keçirilir.

Tədqiqat işində aparılmış qiymətləndirmələrə əsasən göstərilir

ki, müxtəlif normativ-hüquqi aktlarla müəyyənləşən və ayrı-ayrı siyasət sənədlərində qarşıya qoyulmuş tədbirlərin effektivliyinin artırılması üçün bazar stabilliyinin təmin edilməsi çağırışı hökumətin istehsalın təşviqinə dair aqrar siyasət tədbirlərinə paralel olaraq həll edilməlidir.

**5. Azərbaycanda aqrar bazarın effektivliyinin qiymətləndirilməsi və inkişaf ehtiyaclarının müəyyən edilməsi**

Aparılmış araşdırmalardan məlum olur ki, ölkədə aqrar sektorun inkişafının təmin edilməsi istiqamətində mövcud olan dövlət dəstəyi tədbirləri çərçivəsində müxtəlif alətlərlə dövlətin aqrar bazara tənzimləyici tədbirləri həyata keçirilməkdədir.

Tədqiqat işində əlverişli bazar şərtlərinin formalaşdırılması üçün inkişaf ehtiyaclarının müəyyən edilməsi baxımından kənd təsərrüfatı məhsulları bazarına tətbiq edilən mövcud tənzimləmə tədbirlərinin effektivliyi qiymətləndirilmişdir.

Aparılmış qiymətləndirmələrdə əvvəlki bölmələrdə müəyyən edilmiş metodoloji yanaşmalar əsasında, həmçinin rəsmi statistik göstəricilər ilə yanaşı, Aqrar Tədqiqatlar Mərkəzində mövcud olan, eyni zamanda müxtəlif sorğularla əldə edilmiş alternativ məlumat mənbələrindən də istifadə edilmişdir.

Aqrar bazarın effektivliyinin qiymətləndirilməsi çərçivəsində Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının əsas xüsusiyyətləri nəzərə alınmaqla, həm istehsalçılar, həm də istehlakçılar baxımından əhəmiyyətinə görə buğda, ət, süd, kartof, soğan və kələm məhsulları üzrə qiymətlərin dəyişkənlik səviyyəsi təhlil edilmişdir.

Müvafiq metodologiya əsasında aparılmış qeyd edilən təhlillərə əsasən eyni bir il ərzində qiymətlərin dəyişkənlik səviyyəsinin qiymətləndirilməsinin nəticələri cədvəl 1-də verilmişdir.

Eyni il ərzində qiymətlərin dəyişkənlik səviyyəsi göstəricisinin kəmiyyətinin 0-a yaxınlaşması həmin məhsulun qiymətlərində kəskin qalxıb-enmələrin daha az baş verdiyini göstərir. Göstəricilərin 100% və daha yuxarı olması isə il ərzində həmin məhsulun qiymətlərinin 2 dəfədən çox dəyişkənliyə məruz qaldığını ifadə edir. İl ərzində müxtəlif aylarda məhsullar üzrə qiymət səviyyələrinin dəyişkənliyi əsasən istehsalın mövsümi xarakter daşıması ilə bağlı hesab edilir. Dissertasiyada bununla bağlı ətraflı təhlillər verilmişdir.

**Cədvəl 1.**

**İl ərzində qiymətlərin orta dəyişkənlik səviyyəsi göstəriciləri**

| | **Kartof** | **Soğan** | **Kələm** | **Üzlü süd** | **Üzsüz süd** | **Sümüklü mal əti** | **Buğda** |
|---|---|---|---|---|---|---|---|
| **2017** | 46% | 133% | - | - | - | 12% | 12% |
| **2018** | 97% | 120% | 93% | 44% | 49% | 5% | 26% |
| **2019** | 85% | 99% | 157% | 37% | 65% | 6% | 21% |
| **2020** | 66% | 134% | 84% | 38% | 77% | 5% | 10% |
| **2021** | 104% | 97% | 71% | 30% | 39% | 12% | 22% |
| **2022** | 94% | 91% | 90% | 6% | 17% | 14% | 17% |

*Mənbə: aqrarbazar.az portalının məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır*

Qiymətlərin bir ilin müxtəlif ayları ərzində dəyişkənlik səviyyəsi ilə yanaşı müxtəlif illərin eyni dövrləri üzrə qiymət fərqləri də əvvəlki bölmələrdə verilmiş müvafiq metodologiyaya uyğun olaraq hesablanmışdır. Qeyd edilən təhlillərin nəticəsinə dair göstəricilər cədvəl 2-də verilmişdir.

**Cədvəl 2.**

**2017-2022-ci illərin müvafiq ayları üzrə qiymətlərin orta dəyişkənlik səviyyəsi göstəriciləri**

| | **Kartof** | **Soğan** | **Kələm** | **Üzlü süd** | **Üzsüz süd** | **Sümüklü mal əti** | **Buğda** |
|---|---|---|---|---|---|---|---|
| **Yanvar** | 72% | 88% | 160% | 19% | 46% | 17% | 19% |
| **Fevral** | 54% | 52% | 131% | 11% | 33% | 18% | 21% |
| **Mart** | 55% | 32% | 172% | 21% | 29% | 16% | 26% |
| **Aprel** | 68% | 43% | 160% | 32% | 38% | 20% | 31% |
| **May** | 74% | 60% | 107% | 45% | 30% | 31% | 34% |
| **İyun** | 102% | 153% | 75% | 24% | 10% | 22% | 50% |
| **İyul** | 128% | 231% | 142% | 43% | 46% | 18% | 66% |
| **Avqust** | 45% | 176% | 157% | 35% | 60% | 20% | 63% |
| **Sentyabr** | 67% | 144% | 137% | 41% | 42% | 30% | 48% |
| **Oktyabr** | 78% | 115% | 192% | 23% | 25% | 36% | 46% |
| **Noyabr** | 70% | 114% | 255% | 23% | 59% | 33% | 32% |
| **Dekabr** | 70% | 85% | 231% | 51% | 80% | 31% | 28% |

*Mənbə: aqrarbazar.az portalının məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır*

Cədvəl 2-də verilmiş göstəricilərin dəyişmə səviyyəsi 0-dan nə qədər yüksək olarsa, bu, müxtəlif illərin eyni ayında baş verən qiymət

dalğalanmalarının daha yüksək olmasını göstərir. Mövsümü xarakteristikası ilə bağlı olaraq il ərzində qiymətlərdəki müəyyən səviyyədə baş verən dalğalanmalar qanunauyğunluq hesab edilə bilərsə də, belə kəskin artıb-azalmalar bazar şərtlərinin, xüsusilə istehsalçılar baxımından əlverişli / güvənli olmaması kimi dəyərləndirilə bilər.

Qiymətlərin dəyişkənlik səviyyəsi ilə yanaşı, tədqiqat işində, qiymət pariteti göstəricisi, bazar marjası, bazar infrastrukturu, istehsalçıların bazara çıxışı kimi məsələlər də təhlil edilmişdir. Qiymətləndirmə nəticələrinə əsasən məlum olur ki, 2022-ci ildə 2015-ci ilə nəzərən ümumi kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri təqribən 49.6% bahalaşsa da, bu artım ümumi məhsul və xidmətlərin istehlakçı qiymətləri üzrə təqribən 66.3% olmuşdur. Həmçinin kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclərin artımı son illərdə bir sıra məhsullar üzrə daha yuxarı olmuşdur.

Göstərilir ki, əsas kənd təsərrüfatı məhsullarının sahədən satış və pərakəndə satış qiymət fərqləri 15-100% arasında dəyişir. Bununla belə, yüksək satış riski qrupuna daxil olmayan kənd təsərrüfatı məhsulları üzrə bazar marjası yüksək olmamaqla, bazar iştirakçıları üçün, əsasən, əlverişli hesab edilir.

R.Hüseynin fikrinə görə kənd təsərrüfatı məhsullarının istehsalçı və istehlakçı qiymətləri arasında formalaşmış yüksək fərqlərin tənzimlənməsi məqsədilə "*dövlətin anbar-tədarük və topdansatış bazar infrastrukturunun inkişafını dəstəkləməsi vəziyyətin müsbətə doğru dəyişməsində mühüm rol oynaya bilər*"[9].

2022-ci ildə Rusiya-Ukrayna münaqişəsinin təsiri ilə kəskinləşən qlobal ərzaq böhranı şəraitində yaşanan təcrübəyə əsaslanaraq F.Fikrətzadə hesab edir ki, "*yerli istehsal potensialının gücləndirilməsi ilə yanaşı, ölkədə ərzaq məhsulları ehtiyatlarının saxlanması üzrə infrastrukturun mövcudluğu və qida sənayesi üzrə yaradılan baza da ölkənin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir*"[10]. Bu fikirləri kənd təsrrüfatı məhsulları üzrə

[9] *Hüseyn, R.Z. Koreya Respublikasının anbar-tədarük və topdansatış bazar infrastrukturunun inkişafı sahəsindəki təcrübəsi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri. № 2, Bakı, 2015, səh. 26-35*
[10] *Fikrətzadə, F.F. Rusiya-Ukrayna münaqişəsindən irəli gələn çağırışlar fonunda Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ilə təminatının gücləndirilməsi və ixrac*

bazar infrastrukturunun inkişaf etdirilməsi üçün əhəmiyyətli bir arqument sayaraq, mövcud vəziyyətin nəzərdən keçirilməsini vacib hesab edirik.

Beləliklə, apardığımız qiymətləndirmələrə əsasən deyə bilərik ki, ümumilikdə kənd təsərrüfatı məhsulları bazarında istehsalçıların, həmçinin istehlakçıların mənafeyi baxımından müəyyən əlverişsiz şərtlər mövcuddur. Əlverişli bazar şərtlərinin formalaşdırılması üçün kənd təsərrüfatı məhsulları üzrə bazar tənzimlənməsinin effektivliyinin artırılması istiqamətində müvafiq tədbirlər təkmilləşdirilməli və bazar uğursuzluqlarının aradan qaldırılması istiqamətində işlər genişləndirilməlidir.

**6. Aqrar bazarın tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri**

Kənd təsərrüfatı məhsulları üzrə əlverişli bazar mühitinin formalaşdırılması məsələləri aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsində mühüm çağırışlardan biri olmaqla, hələ də təkmilləşdirilməsinə ehtiyac olan aktual məsələlərdəndir.

Dissertasiya işində aparılmış təhlil və qiymətləndirmələrin nəticələrinə əsasən müəyyən edilmiş aqrar bazarın inkişafı ehtiyaclarına uyğun olaraq kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi istiqamətləri, bu istiqamətlərdə tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsinə dair əsaslandırmalar verilmişdir.

Göstərilir ki, əsas kənd təsərrüfatı məhsullarının istehsal mövsümündə yaranan təklif artıqlığının səbəb olduğu qiymətlərin azalması, həmçinin bu baxımdan fermerlərin satışla bağlı çətinlikləri bu istiqamətdə tənzimləmə tədbirlərinin həyata keçirilməsini zəruri edir. Digər tərəfdən bir ildə qiymətləri kəskin ucuzlaşan məhsulların növbəti ildə istehsalında fermerlərin marağının azalması, və yaxud əksinə, baha satılan məhsulların növbəti ildə təklif artıqlığı əlverişsiz bazar şərtlərinin formalaşmasına səbəb olur. Belə hallar fermerlərin istehsal fəaliyyəti ilə bağlı dayanıqlılığın olmaması ilə nəticələnir ki, bu da ümumilikdə ölkə üzrə aqrar məhsulların istehsal həcminə təsir edir.

Dissertasiyada qiymət səviyyəsinin yaratdığı bazar qeyri-müəyyənliklərinin aradan qaldırılması və ya minimallaşdırılması

*bazarlarının diversifikasiyası məsələləri / F.F. Fikrətzadə // "İqtisadi islahatlar" elmi-analitik jurnal № 2(3) /// - Bakı: - 2022, - 20-28 s.*

istiqamətində təkmilləşdirmə ehtiyacları verilməklə, logistika infrastrukturunun, o cümlədən saxlama anbarları, qəbul, tədarük məntəqələrinin, emal müəssisələrinin genişləndirilməsi məqsədilə konkret stimullaşdırma tədbirlərinin tətbiqi ilə bağlı əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Digər təkmilləşdirmə istiqaməti kimi, yerli məhsullarla yanaşı ucuz idxal mənbələri hesabına bazarda yaranan rəqabət şəraitində əlverişsiz şərtlərin formalaşmasının qarşısının alınması göstərilir. Bu istiqamətdə vergi-gömrük siyasətinin təkmilləşdirilməsi, həmçinin qeyri-tarif alətləri vasitəsilə keyfiyyətə nəzarət tədbirlərinin gücləndirilməsi mühüm hesab edilmişdir.

Bunlarla yanaşı, kənd təsərrüfatı bazarının bazar qanunauyğunluqlarının işləkliyinin artırılması, əlverişli bazar şərtlərinin formalaşması baxımından informasiya asimmetriyasının aradan qaldırılması aqrar bazarın tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərindən biri kimi araşdırılmışdır.

## ƏSAS NƏTİCƏLƏR

Dissertasiyada aparılmış təhlil və qiymətləndirilmələr əsasında aşağıdakı əsas nəticələr əldə edilmiş və bazarın tənzimlənməsi mexanizmlərinə dair təklif və tövsiyələr verilmişdir:

1. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi müxtəlif dövrlərdə iqtisadi-siyasi situasiyalardan asılı olaraq müxtəlif formalarda mövcud olmuşdur. İstər tarixi baxımdan, istərsə də müasir dövrdə əksər ölkələr tərəfindən aqrar bazarın tənzimlənməsi əlverişli bazar şərtlərinin formalaşdırılması, bazar qanunauyğunluqlarının düzgün işləməsini təmin etmək məqsədilə nisbətən geniş tətbiq olunur;

2. Müasir şəraitdə aqrar bazarın tənzimlənməsi sistemində dövlətin bazara müdaxilə tədbirləri xüsusi yer tutur. Belə tədbirlər əksər hallarda, bazar uğursuzluqlarını və riskləri azaltmaq və ya aradan qaldırmaq, həmçinin bu istiqamətdə önləyici tədbirlər görmək məqsədi daşıyan əsas siyasət alətləri sırasında yer alır;

3. Azərbaycanda aqrar sektorun inkişafının təmin edilməsi məqsədilə dövlətin bir neçə istiqamətdə dəstək tədbirləri həyata keçirilir. Həmçinin bir sıra siyasət sənədlərində, proqram və

strategiyalarda aqrar bazarın inkişafına yönəldilmiş mühüm tədbirlər müəyyən edilmişdir. Bu tədbirlər çərçivəsində aqrar sektorda istehsalın həcmində artım dinamikasına nail olunmuş, aqrar məhsulların ixracı həcmi genişlənmişdir. Həmçinin regionlarda logistika və bazar infrastrukturunun qurulmasının stimullaşdırılması tədbirləri uğurla davam etdirilir;

4. Hazırda ölkədə əlverişli qiymətlərlə istehsal vasitələri ilə təminatın yaxşılaşdırılması, bazar təklifinin sabitliyinə nail olunması üçün gömrük vergi və rüsumları ilə idxal və ixracın tənzimlənməsi, həmçinin rəqabət şərtlərinin qorunması baxımından qeyri-tarif alətləri ilə yerli və idxal məhsullar üzrə keyfiyyətə nəzarət tədbirləri çərçivəsində bazarın tənzimlənməsi müəyyən formada həyata keçirilir. Qeyd edilən bu kimi mexanizmlər və siyasət alətləri aqrar bazarın tənzimlənməsinə müəyyən dərəcədə xidmət etsə də, ölkədə tam sistemli və daha effektiv əlaqələndirilmiş bazar tənzimlənməsi mexanizmi, o cümlədən birbaşa bazar intervensiyası mexanizmi mövcud deyil;

5. Bununla yanaşı, əsas kənd təsərrüfatı məhsulları üzrə bazar qiymətlərinin səviyyəsində, xüsusilə mövsüm dövrlərində istehsalın artımının səbəb olduğu qeyri-stabillik yüksəkdir. Bununla da, istehsal mövsümündə bazarda yerli məhsulların yaratdığı təklif artıqlığı qiymətlərin səviyyəsində dalğalanmaların müşahidə olunması ilə nəticələnir ki, bu da istehsalçılar üçün əlverişsiz bazar şərtləri formalaşdırır. Belə vəziyyətin aradan qaldırılması üçün istehsalçılar və istehlakçılar baxımından qiymətlərin optimal səviyyəsinə nail olumasını təmin edən işlək və çevik bazar intervensiyası mexanzimlərinin yaradılması məqsədəuyğun hesab edilir;

6. İstehsal mövsümündə yerli istehsalçıların bir-biri üçün yaratdığı əlverişsiz bazar şərtləri, həm də həmin dövrdə ucuz idxal məhsulların bazara daxil olması ilə daha da artmış olur ki, bu da istehsalçıların zərər çəkməsinə səbəb olur. Belə bazar uğursuzluqlarının minimallaşdırılması üçün yerli və idxal məhsullara barabər rəqabət mühitinin yaxşılaşdırılması məqsədilə gömrük-tarif siyasəti, o cümlədən idxala tətbiq edilən rüsumların və ixracın tənzimlənməsi mexanizmlərinin bazar intervensiyası mexanizmi ilə əlaqələndirilməklə tətbiqi, həmçinin yerli və idxal məhsullar üzrə

keyfiyyət təhrifinin azaldılması məqsədilə qeyri-tarif siyasəti tədbirləri çərçivəsində qida standartlarına nəzarət tədbirlərinin gücləndiriləməsi vacibdir;

7. Eyni zamanda istehsal edilən məhsulların saxlanması üçün infrastruktur çatışmazlığı mövcuddur. Regionlarda logistika xidmət şəbəkələri, qəbul və tədarük məntəqələri tələbata uyğun həcmdə deyil. Aqrar bazarın inkişafı tədbirləri çərçivəsində logistika infrastrukturunun, o cümlədən soyuducu anbarların, qəbul və tədarük məntəqələrinin genişləndirilməsinin stimullaşdırılması təklif edilir ki, bu istiqamətdə güzəştli maliyyələşmə, o cümlədən kredit fazilərinin subsidiyalaşdırılması, kredit zəmanəti mexanizminin tətbiqi və ya subsidiyalaşdırılan intensiv bağlar üçün soyuducu anbar qurulmasına əlavə stimul verilməsi imkanlarının dəyərləndirilməsi məqsədəuyğun olar;

8. Kənd təsərrüfatı məhsullarının emal səviyyəsi aşağıdır. İstehsal edilən kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə və tərəvəzin təqribən az hissəsi emal edilir. Həmçinin emal müəssisələri müəyyən obyektiv səbəblərdən yerli məhsullarla işləməyə çox da maraqlı deyil. Bu sahədə inkişafın sürətləndirilməsi baxımından yerli məhsulların emalının təşviq edilməsi və dəyər zəncirində məhdudlaşdırıcı amillərin aradan qaldırılması təklif edilir. Bunun üçün ƏDV-nin təkmilləşdirilməsi, dəyər zəncirində "vergi qırılmaları"nın aradan qaldırılması bazarın tənzimlənməsi baxımından stimullaşdırıcı əsas mexanizlərdən biri kimi çıxış edə bilər;

9. Bəzi sektorlarda alıcı və satıcı münasibətlərində, xüsusilə yerli istehsalçılar baxımından haqsız ticarət şərtləri mövcuddur. Belə halların aradan qaldırılması baxımından hüquqi bazanın təkmilləşdirilməsi və nəzarət tədbirlərinin gücləndirilməsi zəruridir;

10. Kənd təsərrüfatı məhsullarının təqribən 2/3-dən artıq hissəsi ilkin formada ixrac edilir. Həmçinin əksər kənd təsərrüfatı məhsulları üzrə ixrac coğrafiyasında bir və ya iki bazardan asılılıq mövcuddur. Kənd təsərrüfatı məhsullarının emal həcminin artırılması ilə yanaşı, ixrac coğrafiyasının diversifikasilaşdırılması məqsədilə qeyri-ənənəvi xarici bazarlara çıxışın təşviq edilməsi, bu məqsədlə Avropa və Ərəb ölkələrində qəbul edilən sertifikatların alınması üçün sahibkarlara qrantların verilməsi, fermerlərə bu istiqamətdə məsləhət-informasiya

xidmətlərinin artırılması məqsədəuyğundur.

11. İstehsalçıların, xüsusilə də kiçik fermerlərin bazar siqnalları, o cümlədən qiymətlərin səviyyəsi, istehsal etdikləri məhsullara dair ticari tələblər, keyfiyyət tələbləri, həmçinin alıcılar haqqında məlumatlılıq səviyyəsi aşağıdır. Belə halların minimallaşdırılması və informasiya asimmetriyasının aradan qaldırılması baxımından bazar məlumatları sisteminin formalaşdırılması, həmçinin kənd təsərrüfatı məhsullarının qiymət bazasının (aqrarbazar.az) təkmilləşdirilməsi bu istiqamətdə təhriflərin azaldılmasını və məlumatların etibarlığının artmasını təmin edə bilər.

12. Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, işğaldan azad edilmiş ərazilərdə aqrar sektorun ənənəvi sahələrinin bərpası və yeni perspektiv sahələrin inkişaf etdirilməsi imkanları kənd təsərrüfatı məhsulları bazarının inkişafı üçün yeni imkanlar yaradır.

## Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:


1. Hacıyeva, S.İ. Aqrar sahədə qiymət paritetliyinin istehsalçıların gəlirlərinə təsiri / "Kənd təsərrüfatının iqtisadiyyatı" elmi praktiki jurnalı 2020, № 1 (31) / - Bakı, - 43-51 s.;
2. Hacıyeva, S.İ. Fermerlərin bazara çıxış problemləri / Azərbaycan Aqrar Elmi" jurnalı 2020, № 1 / - Bakı, 94-103 s.;
3. Hacıyeva, S.İ. Kənd təsərrüfatı məhsulları bazarında intervensiya tədbirləri: dünya təcrübəsi və Azərbaycanda tətbiqi istiqamətləri / "Statistika xəbərləri" jurnalı 2020, № 4 / - Bakı, - 59-70 s.;
4. Hajiyeva, S.I. Regulation issues of price fluctuations in the agricultural market / Часопис Економічних Реформ науково-виробничий журнал 2022, № 2 (46) / - Харкив, 19-24 s.;
5. Hajiyeva, S.I. Market risks and risk management in the agricultural sector: challenges for Azerbaijan / Экономика и предпринимательство 2022, № 6 (143) / - Москва, Россия, - 404-408 s.;
6. Hacıyeva, S.İ. Azərbaycanda kənd təsərrüfatı məhsulları üzrə ticarət marjasının təhlili / "ADAU-nun Elmi Əsərləri" 2023, №1 / 47-52 s.;
7. Hacıyeva, S.İ. Aqrar bazarın gömrük-tarif alətləri vasitəsilə tənzimlənməsi / Kənd təsərrüfatının dayanıqlı inkişafı: qlobal çağırışlar və Azərbaycanda həyata keçirilən islahatlar" elmi-praktiki

konfrans materialı, “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi praktiki jurnalı 2020, № 4 (34) / - Bakı, - 162-169 s.;

8. Hajiyeva, S.I. Main Challenges in Agricultural Commodity Market: Logistics Issues for the Export of Fresh Agricultural Products in Azerbaijan / ICOFAAS 2021. 3rd International Conference on Food, Agriculture and Animal Sciences (online), October 13-17, 2021, ISBN: 978-625-00-0379-4 / - Erzurum, Turkey, - 285-291 s.;
9. Hajiyeva, S.I. The Characteristics of Azerbaijan's Agricultural Products Market Formation / Importance of Soft Skills for Life and Scientific Success: Proceedings of the 1st International Scientific and Practical Internet Conference, March 1-2, 2022, ISBN 978-617-95218-4-3 / - Dnipro, Ukraine, - 60-62 s.;
10. Hajiyeva, S.I. Market gap analysis: untapped potential for export-oriented agricultural products in Azerbaijan / International Scientific-Practical Conference “Economic growth in the conditions of globalization”, October 12-13, 2022, ISBN 978-9975-3583-9-2 / - Moldova, Chisinau, - 570-576 s.;
11. Hacıyeva, S.İ. Bazara çıxışın yaxşılaşdırılması ilə aqrar istehsalın artırılması imkanları / “Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının aktual problemləri” Respublika Elmi Konfransı, 20-21 oktyabr 2022, № 6 / - Sumqayıt, - 396-398 s;
12. Xəlilov, H.A. “Modern dəyər zəncirinə keçid şəraitində kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri” / H.A.Xəlilov, Hacıyeva S.İ, Qasımova N.F // Kənd təsərrüfatının iqtisadiyyatı Elmi praktik jurnal № 1 (43) // - Bakı: - 2023, 9-26 s.

Dissertasiyanın müdafiəsi 12 iyun 2024-cü il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.04.2024.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (38442 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*